# 2016-cı ilin Nobel mükafatları sahiblərinə təqdim olundu



Dekabrın 10-da İsveçin və Norveçin paytaxt şəhərləri Stokholm və Osloda 2016-cı ilin Nobel mükafatı laureatlarının mükafatlandırılması mərasimi keçirilib. www.nobelprize.org saytının məlumatına əsasən, mərasim 1896-cı il dekabrın 10-da vəfat etmiş Alfred Nobelin anım günündə baş tutub. Stokholmda keçirilən tədbirdə fizika, kimya, fiziologiya və təbabət, ədəbiyyat və iqtisadiyyat sahələrində mükafatlar təqdim olunub. Mərasimi açan Nobel Fondunun İdarə Heyətinin sədri Karl -Henrix Heldin bildirib ki, Alfred Nobel mükafatının təsis olunmasında məqsəd bəşəriyyətin inkişafına çox böyük xeyir verən şəxslərin mükafatlandırılması olub. "Nobel laureatlarının təbiət elmləri və humanitar sahələrdəki kəşflərinə böyük maraq var", - deyə o əlavə edib.

Stokholm Filarmoniyasında keçirilən mərasimdə builki Nobel mükafatı laureatlarına İsveç Kralı XVI Karl Qustav tərəfindən üzərində Nobelin təsvir edildiyi qızıl medal, diplom və pul mükafatları təqdim olunub. Mərasimdə bütün laureatlara çıxış etmək imkanı verilib. Sonda Nobel mükafatı laureatları və qonaqları üçün rəsmi bayram ziyafəti təşkil olunub. Fiziologiya və təbabət sahəsində Nobel mükafatı autofaqiya mexanizmlərinin kəşflərinə görə yapon alimi Yoşinori Ohsumiyə, fizika üzrə Nobel mükafatı amerikalı alimlər David Toulessə, F.Dunkan Haldana və J.Maykl Kosterlitzə, kimya sahəsində Nobel mükafatı molekulyar maşınların dizaynı və sintezi işində kəşflərinə görə üç alimə - fransalı Jan-Pyer Savaja, şotlandiyalı J.Fraser Stoddarta və hollandiyalı Bernard L.Ferinqaya təqdim olunub. İqtisadiyyat üzrə Nobel mükafatı müqavilələr nəzəriyyəsinin öyrənilməsi sahəsində tədqiqatlara görə Harvard Universitetinin professoru Oliver Xart və Masaçusets Texnologiya İnstitutunun professoru Benq Holmstroma verilib. Amerikalı musiqiçi və yazıçı Bob Dilan isə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. Lakin o, mərasimdə iştirak etməyib. Bununla belə o, İsveçə təşəkkür məktubu göndərib. 2016-cı ilin sülh üzrə Nobel mükafatı isə öz ölkəsində 50 illik müharibəyə son qoyduğuna görə Kolumbiya prezidenti Xuan Manuel Santusa təqdim olunub.

Qeyd edək ki, üzərində Nobelin əksi olan medal 19 karat qızıldan hazırlanıb və çəkisi 175 qramdır. 1901-ci ildən fizika sahəsində mükafat 110, kimya sahəsində 107, ədəbiyyat üzrə 109, sülh üzrə 96, iqtisadiyyat üzrə (1968-ci ildən) 48 dəfə təqdim olunub.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*